# Hilas və Filonus arasında üç dialoq

written by CorcBerkli

*Corc Berkli (1685-1753) məşhur britaniyalı filosofdur. Onun Hilas və Filonus arasında üç dialoq (Three Dialogues between Hylas and Philonous) əsəri qabaqcıl universitetlərin bir çoxunda fəlsəfə ixtisası üzrə təhsil alan ilk kurs tələbələrinə oxunması tövsiyə olunan əsərlərdən biridir. Əsər dünyanın onlarca müxtəlif dillərinə tərcümə edilmişdir.*

***Birinci dialoqun ikinci hissəsi (mətnin sonunda dialoqun əvvəlki hissəsinə və Ön sözə keçid yerləşdirilmişdir)***

**Filonus:** Gəlin digər hissi keyfiyyətləri də qaydasınca yoxlayaq. Dadlar barəsində necə? Düşünürsünüz ki, onlar zehindən kənarda mövcuddur, ya yox?

**Hilas:** Kimsə ayıq başla şəkərin şirin və ya yovşanın acı olmasına şübhə edə bilər?

**Filonus:** Söyləyin mənə, Hilas, şirin dad həzzin və ya xoş hissiyatın bir növüdür, yoxsa deyil?

**Hilas:** Həzzin və ya xoş hissiyatın bir növüdür.

**Filonus:** Bəs acılıq narahatlıq və ya ağrının bir növü deyil?

**Hilas:** Bəli.

**Filonus:** Deməк, əgər şəkər və yovşan zehindən kənar mövcud olan düşünməyən cismani substansiyalardırsa, onda şirinlik və acılıq, yəni həzz və ağrı onlarda necə ola bilər?

**Hilas:** Dayanın, Filonus, bütün bu vaxt ərzində məni yanıldan şeyi indi tapdım. Siz isti və soyuğun, şirinlik və acılığın həzz və ağrının müəyyən növləri olduğunu soruşdunuz — hansını ki mən təsdiqlə cavabladım. Mən bir fərqləndirmə apararaq cavab verməli idim: həmin keyfiyyətlər *tərəfimizdən qavranılan*

*olaraq* həzz və ya ağrılardır, *xarici obyektlərdə mövcud olaraq* deyil. Deמək, biz odda istiliyin və ya şəkərdə şirinliyin yoxluğunu düzəlişsiz nəticə çıxara bilmərik; ancaq onu yalnız nəticə çıxara bilərik ki, isti və ya şirinlik tərəfimizdən qavranılan olaraq atəşdə və ya şəkərdə var. Buna nə deyirsiniz?

**Filonus:** Deyirəm, bunun məsələyə dəxli yoxdur. Biz yalnız sizin birbaşa hisslərimizlə qavradığımız şeylər olaraq tərif verdiyiniz "hissi şeylər" barəsində danışırdıq. Bəhs etdiyiniz *başqa* keyfiyyətlər hər nə olursa olsun, söhbətə aid deyil və onlar barəsində mən heç bir şey bilmirəm. Əslində iddia edə və təsdiqləyə bilərsiniz ki, hansısa qavramadığınız keyfiyyətləri kəşf etmisiniz və *onlar* odda və şəkərdə mövcuddur; ancaq mən görə bilmirəm ki, bu, bizim mübahisəmizdə sizin lehinizə necə işləyir. Onda bir daha mənə deyin, siz qəbul edirsiniz ki, isti və soyuq, şirinlik və acılıq (hisslərlə qavranılan keyfiyyətləri nəzərdə tuturam) zehindən kənarda mövcud deyil?

**Hilas:** Görürəm, israr etməyin faydası yoxdur, ona görə də həmin dörd keyfiyyətlə bağlı məsələdə güzəştə gedirəm. Buna baxmayaraq, deməliyəm ki, şəkərin şirin olmadığını demək qəribə səslənir.

**Filonus:** Bunu nəzərinizdə tutsanız, sizə daha yaxşı səslənər: Damağı xəstə birisi başqa vaxtlarda ona şirin gələn şeyi acı kimi hiss edə bilər. Və tamamilə aydındır ki, birinə həzz verən, digərinə iyrənc gəldiyindən müxtəlif şəxslər eyni qidada müxtəlif dadlar qavrayırlar. Əgər dadlar həqiqətən qidalarda olsaydı, bu, necə ola bilərdi?

**Hilas:** Etiraf edirəm ki, bilmirəm necə olardı.

**Filonus:** İndi qoxular haqqında düşünək. Qoxular dadlar barəsində indicə söylədiklərimə tam uyğun gəlmirlərmi? Onlar da eyni şəkildə xoşagələn və xoşagəlməyən duyğular deyilmi?

**Hilas:** Elədir.

**Filonus:** Bu halda siz onların qavramayan şeydə mövcud olmasının mümkünlüyünü təsəvvür edə bilirsiniz?

**Hilas:** Təsəvvür edə bilmirəm.

**Filonus:** Və ya təsəvvürünüzə gətirə bilərsiniz ki, tullantı və ifrazatlar onlarla qidalanan heyvanlara bizim qavradığımız eyni qoxularla təsir edir?

**Hilas:** Heç bir halda.

**Filonus:** Onda nəticə çıxara bilmərikmi ki, müzakirə etdiyimiz digər keyfiyyətlər kimi qoxular da qavrayan substansiya və ya zehindən kənar heç bir yerdə mövcud ola bilməz.

**Hilas:** Məncə də elədir.

**Filonus:** Səslər barəsində necə bəs? Onlar xarici cisimlərin özündə gerçəkdən olan keyfiyyətlərdir, ya yox?

**Hilas:** Onlar səsverən cisimlərdə mövcud deyillər. Biz bunu bilirik, çünki zəng vakuumda vurulduqda səs çıxarmır. Deməli, səsin daşıyıcısı hava olmalıdır.

**Filonus:** Bunu izah edin, Hilas.

**Hilas:** Əgər havada hər hansı hərəkət yaranırsa, biz havanın hərəkətinə müvafiq olaraq hündür və ya aşağı səs qavrayırıq; ancaq hava sabit olanda, biz ümumiyyətlə səs eşitmirik.

**Filonus:** Nəzərə alaraq ki, havada hərəkətin meydana gəlməsi halından başqa biz heç vaxt səs eşitmirik, mən hələ də anlamıram ki, siz buradan səsin özünün havada olması nəticəsini necə çıxara bilirsiniz?

**Hilas:** Zehində səs duyğusu yaradan məhz xarici havadakı bu hərəkətdir. Qulaq pərdəsinə toxunmaqla o, eşitmə sinirləri ilə beyinə ötürülən titrəyişə səbəb olur və nəticədə zehin səs deyilən duyğunu yaşayır.

**Filonus:** Necə? Səs duyğudur?

**Hilas:** Dediyim kimi: *tərəfimizdən qavranılan olaraq* zehindəki xüsusi duyğudur.

**Filonus:** Bəs hər hansı duyğu zehindən kənarda mövcud ola bilər?

**Hilas:** Əlbəttə xeyr.

**Filonus:** Ancaq əgər səs duyğudursa və siz “hava” deyəndə zehindən kənarda mövcud olan hissiyatsız substansiyanı nəzərdə tutursunuzsa, o, necə havada mövcud ola bilər?

**Hilas:** Filonus, siz tərəfimizdən qavranılan olaraq səsi özü-özlüyündəki səsdən və ya başqa sözlə desək, birbaşa qavradığımız səsi bizdən kənarda mövcud olan səsdən fərqləndirməlisiniz. Əvvəlki həqiqətən duyğunun xüsusi növüdür, sonuncu isə sadəcə havadakı titrəmədir.

**Filonus:** Düşünürdüm ki, siz bir az əvvəl oxşar hala müraciət edərkən mən verdiyim cavabla bu fərqləndirməyə artıq toxunmuşam. Ancaq bunu kənara qoyaq. Onda siz əminsiniz ki, səs əslində hərəkətdən başqa bir şey deyil?

**Hilas:** Əminəm.

**Filonus:** Odur ki, əsl səs haqqında həqiqi olan şeylər doğrudan-doğruya hərəkətə də aid edilə bilər.

**Hilas:** Edilə bilər.

**Filonus:** Demək, hərəkəti kəskin, şirin, qulaqdəlici və ya yumşaq səsli bir şey kimi xarakterizə etməyin mənası var!

**Hilas:** Görürəm ki, məni anlamamaqda qərarlısınız. Aşkar deyilmi ki, həmin keyfiyyətlər (indicə başa saldığım kimi) havadakı müəyyən hərəkətdən savayı bir şey olmayan gerçək və elmi mənadakı “səs”ə deyil, yalnız *hissi* səsə və ya “səs” sözünün adi gündəlik mənasına aiddir.

**Filonus:** Görünür, onda iki növ səs var — bizim eşitdiyimiz adi, gündəlik növ və eşitmədiyimiz elmi və gerçək növ.

**Hilas:** Eynilə.

**Filonus:** Və sonuncu səs növü hərəkətdən ibarətdir.

**Hilas:** Dediyim kimi.

**Filonus:** Söyləyin, Hilas, sizcə hərəkət ideyası hansı duyğulara aiddir? Eşitmə duyğusuna?

**Hilas:** Əlbəttə yox, görmə və toxunma duyğusuna.

**Filonus:** Onda sizin dediklərinizə əsasən belə nəticə çıxmalıdır ki, gerçək səslər görünə və ya toxunula bilər, ancaq əsla eşidilə bilməz.

**Hilas:** Baxın, Filonus, istəyirsiz mənim baxışlarımı lağa qoyun, ancaq bu, həqiqəti dəyişməyəcək. Etiraf edirəm ki, baxışlarımdan çıxardığınız nəticələr bir az qəribə səslənir; ancaq gündəlik dil adi insanlar tərəfindən onların özlərinin istifadəsi üçün yaradılmışdır, bu səbəbdən, təəccüblü deyil ki, dəqiq elmi anlayışları ifadə etməyə uyğunlaşdırılmış ifadələr yöndəmsiz və qəribə görünür.

**Filonus:** Gəlib çıxdığımız yer budur? Sizi inandırım, düşünürəm ki, gündəlik ifadə və düşüncələrdən belə asanlıqla əl çəkirsinizsə, mən olduqca böyük qələbə qazanmışam; çünki bizim başlıca mübahisə etdiyimiz məsələ bu idi ki, kimin anlayışları ümumi yoldan ən uzaq və insanların gündəlik düşündükləri ilə daha çox ziddiyyətdədir. İddia edirsiniz ki, gerçək səslər heç vaxt eşidilmir, səslər haqqındakı ideyalarımızı hansısa başqa hisslərlə əldə edirik – düşünə bilirsiniz ki, bu sadəcə qəribə səslənən elmi həqiqətdir? Bunda təbiətə və şeylərin həqiqətinə əks heç nə yoxdur?

**Hilas:** Açığını desəm, mən də bunu bəyənmirəm. Artıq etdiyim güzəştləri nəzərə alaraq, yaxşısı etiraf edim ki, səslər də zehindən kənarda gerçək mövcudluğa malik deyillər.

**Filonus:** Və ümid edirəm ki, eyni şeyi rənglərlə bağlı etiraf etməkdə çətinlik çəkməyəcəksiz.

**Hilas:** Məni bağışlayın, ancaq rənglərlə bağlı məsələ tamamilə fərqlidir. Rəngləri obyektlərdə görməyimizdən daha aşkar fakt ola bilərmi?

**Filonus:** Güman edirəm ki, haqqında danışdığınız obyektlər zehindən kənarda mövcud olan cismani substansiyalardır.

**Hilas:** Elədir.

**Filonus:** Və onlar özlərinə aid həqiqi və gerçək rənglərə malikdirlər?

**Hilas:** Hər bir görünən obyekt bizim onlarda gördüyümüz rəngə malikdir.

**Filonus:** Necə? Məgər bizim görmə ilə qavradığımızdan başqa görünən daha nəsə varmı?

**Hilas:** Yoxdur.

**Filonus:** Və biz birbaşa qavramadığımız nəyisə duyğularımızla qavrayırıq?

**Hilas:** Bunu neçə dəfə deməliyəm? Yenə deyirəm, xeyr.

**Filonus:** Səbrli olun, Hilas və bir də mənə deyin, hissi keyfiyyətlərdən başqa daha nəsə hisslərlə birbaşa qavranılırmı? Bilirəm, təsdiqləmişdiniz ki, heç nə qavranılmır. Ancaq indi bilmək istəyirəm, siz hal-hazırda da o cür düşünürsünüz?

**Hilas:** Bəli, elə düşünürəm.

**Filonus:** İndi deyin, sizin *cismani substansiyanız* hissi keyfiyyətdir, yoxsa hissi keyfiyyətlərdən təşkil olunub?

**Hilas:** Bu nə sualdır soruşursunuz? Kimsə nə vaxtsa bunu düşünüb ki?

**Filonus:** Soruşmağımın səbəbi budur: *Hər bir görünən obyekt bizim onda gördüyümüz rəngə malikdir* söyləyərkən, siz ya (1)

görünən obyektlərin hissi keyfiyyətlər olmasını, ya da (2) görmə ilə hissi keyfiyyətlərdən başqa daha nəyinsə qavranıla bilməsini fikrinizdə tutursunuz. Ancaq biz əvvəl razılaşmışdıq ki, (2) yanlışdır və siz hələ də belə olduğunu düşünürsünüz. Buna görə tezis (1)-də – *görünən obyektlər hissi keyfiyyətlərdir* tezisinin üstündə qalırıq. İndi siz bu söhbətdə qəbul etdiniz ki, *görünən obyektlər cismani substansiyalardır*; deməli, biz belə qənaətə gəlirik ki, *cismani substansiyalar hissi keyfiyyətlərdən başqa bir şey deyildir*.

**Hilas:** Siz istədiyiniz qədər çoxlu absurd nəticələr çıxara, ən sadə şeyləri dolaşdırmağa çalışa bilərsiz; ancaq heç vaxt mənim fəhmimi yayındıra bilməzsiniz. Mən özüm nəyi nəzərdə tutduğumu aydın anlayıram.

**Filonus:** İstərdim ki, bunu mənə də başa salasınız. Ancaq cismani substansiyalar haqqındakı baxışlarınızı nəzərdən keçirməyimi istəmədiyinizə görə bu məsələni kənara qoyacam. Hərçənd, xahiş edirəm, söyləyin, gördüyümüz rənglər eynilə xarici cisimlərdə mövcud olanlardır, yoxsa başqalarıdır?

**Hilas:** Onlar eynidir.

**Filonus:** Aha! Onda o buludlar üzərində gördüyümüz parlaq qırmızı və bənövşəyi rənglər həqiqətən buludların özündədir? Yoxsa, düşünürsüz ki, buludlar özü-özlüyündə qaranlıq duman və ya buxardan başqa bir şey deyil?

**Hilas:** Filonus, etiraf etməliyəm ki, həmin rənglər buludlarda bu məsafədən göründükləri kimi gerçək olaraq yoxdurlar. Onlar yalnız görüntü rənglərdir.

**Filonus:** Onları *görüntü* adlandırırsınız? Biz bu görüntü rəngləri gerçək rənglərdən necə fərqləndirməliyik?

**Hilas:** Çox asanlıqla. Əgər rəng uzaqdan görünürsə və ona yaxınlaşdıqca yoxa çıxırsa, onda bu, sadəcə görüntüdür.

**Filonus:** Yəqin edirəm, gerçək rənglər yaxından diqqətlə

baxarkən aşkara çıxanlardır?

**Hilas:** Doğrudur.

**Filonus:** Baxmağın ən yaxın və ən diqqətli üsulu mikroskop vasitəsilədir, yoxsa sadəcə çılpaq gözlə baxmaqdır?

**Hilas:** Əlbəttə, mikroskop vasitəsilə.

**Filonus:** Ancaq mikroskop obyektdə çılpaq gözlə qavranılan rənglərdən daha fərqli rənglər aşkara çıxarır. Əgər istədiyimiz həddə qədər böyütməyi bacaran mikroskoplarımız olsaydı, dəqiqdir ki, həmin mikroskoplarla baxdıqda heç bir obyekt çılpaq gözə göründüyü rəngdə görünməyəcəkdi.

**Hilas:** Yaxşı, buradan nə nəticə çıxarırsınız? Siz rənglərin süni üsullarla dəyişdirilə və ya yoxa çıxarıla bilməsi əsasında deyə bilməzsiniz ki, obyektlərdə gerçək və təbii olaraq heç bir rəng yoxdur.

**Filonus:** Düşünürəm ki, sizin özünüzün etiraf etdiklərinizdən açıq-aydın nəticə çıxa bilər ki, bizim çılpaq gözlə gördüyümüz bütün rənglər (buludların üzərindəkilər kimi) yalnız *görüntü*dür, çünki mikroskop halında olduğu kimi, kimsə onlara daha yaxından və diqqətlə baxdıqda yoxa çıxa bilir. Və sizin növbəti etirazınızı qabaqlamaq üçün sual edirəm: obyektin real və gerçək vəziyyəti çox iti və dərin görmə ilə, yoxsa daha az iti görmə ilə daha yaxşı aşkara çıxır?

**Hilas:** Birinci ilə, şübhəsiz.

**Filonus:** Optika elmindən məlum deyilmi ki, mikroskop görməni daha da nüfuzedici edir və obyektləri gözlərdə sanki təbii olaraq bəxş edilmiş müstəsna iti görmə ilə görünə bilən kimi inikas etdirir?

**Hilas:** Elədir.

**Filonus:** Demək, bir şeyin mikroskopik görüntüsü onun gerçək təbiətinin nə olmasının ən yaxşı göstəricisi və ya şeyin özü-

özlüyündə olması kimi nəzərə alınmalıdır. Odur ki, rənglərin mikroskop vasitəsilə qavranılması onların başqa şəkildə qavranılmasından daha həqiqi və gerçəkdir.

**Hilas:** Etiraf edirəm ki, dediklərinizdə həqiqət var.

**Filonus:** Bundan başqa, sadəcə *mümkün olaraq* yox, həm də açıqca *həqiqi*dir ki, elə heyvanlar var ki, gözləri bizim görməmiz üçün olduqca kiçik olan şeyləri qavramağa təbiətən uyğunlaşmışdır. Siz mikroskopla qavradığımız bu inanılmaz dərəcədə kiçik heyvanlar haqqında nə düşünürsünüz? Biz güman etməliyik ki, onların hamısı tamamilə kordur? Əgər onlar görə bilirlərsə, güman etməməliyikmi ki, onların görməsi eynilə bütün digər heyvanlardakı kimi, bədənlərini xəsarətlərdən qorumaq əhəmiyyətinə malikdir? Əgər bu belədirsə, onda aşkar deyilmi ki, onlar öz bədənlərinin ölçüsündən daha kiçik hissələri görməlidir və belə görmə hər bir obyekti onlara bizim duyğularımıza veriləndən çox fərqli bir baxışdan təqdim edəcək? Hətta öz gözlərimiz belə obyektləri həmişə eyni şəkildə inikas etdirmir. Hər kəs bilir ki, sarılıqdan əziyyət çəkən birinə hər şey sarı görünür. Beləliklə, yüksək ehtimal deyilmi ki, gözləri bizimkindən daha fərqli qurulmuş və cismani mayeləri bizimkinə bənzəməyən heyvanlar hər bir obyektdə bizim gördüyümüz rəngləri görmürlər. Bütün bunlardan belə nəticə çıxmalı deyilmi ki, bütün rənglər eyni dərəcədə görüntüdür və bizim gördüklərimizdən heç biri gerçək olaraq xarici obyektlərdə mövcud deyil?

**Hilas:** Elə olmalıdır.

**Filonus:** Bütün şübhələri bir kənara qoymaq üçün gəlin bunu da nəzərdən keçirək: əgər rənglər gerçək əlamətlər və ya xarici cisimlərdəki keyfiyyətlər olsaydı, onlar cisimlərin özlərində hər hansı dəyişkənlik olmadan dəyişilə bilməzdilər. Ancaq aşkar deyilmi ki, bir obyektin rəngləri mikroskop istifadəsi ilə və ya göz mayesinin dəyişikliyi ilə, ya da ki baxış məsafəsindəki dəyişkənliklə cismin özündə heç bir gerçək dəyişiklik olmadan dəyişilə və ya yox edilə bilər? Əslində,

hətta bütün digər amillər dəyişilməz qalsa belə, bəzi cisimlər baxış bucağından asılı olaraq gözə fərqli rənglərdə görsənir. Eyni hal biz obyektə fərqli işıq parlaqlığında baxdığımızda baş verir. Və hər kəs bilir ki, eyni cisimlər şam işığında gün işığında göründüyündən fərqli rəngdə görünür. Bu faktlara prizma təcrübəmizi əlavə edin, hansı ki işığın müxtəlif şüalarını ayırır və bununla da ağappaq obyektin çılpaq gözə tünd-göy və ya qırmızı görünməsinə səbəb olaraq obyektdəki rəng dəyişir. İndi söyləyin mənə, siz hələ də düşünürsünüz ki, hər cisim özündə olan həqiqi və gerçək rəngə malikdir? Əgər düşünürsünüzsə ki, malikdir, bilmək istəyirəm, həmin həqiqi rəngin kəşfi və görüntü rəngdən fərqlənməsi üçün obyektin hansı xüsusi məsafəsi və istiqaməti, gözlərin hansı xüsusi vəziyyəti, işığın hansı intensivliyi və ya növü lazımdır?

**Hilas:** Tam əminliklə etiraf edirəm ki, onlar eyni dərəcədə görüntüdürlər, xarici cisimlərin özündə əslində rəng deyilən bir şey yoxdur və *rəng bütünlüklə işıqdadır.* Bu fikri təsdiq edən fakt odur ki, rənglər işığın parlaqlığından asılı olaraq çox və ya az dərəcədə aydındır və işıq olmadıqda heç bir rəng görünmür. Digər tərəfdən, əgər rənglər xarici obyektlərdə mövcud olsaydı, bizim onları qavraya bilməyimiz necə mümkün olardı? Heç bir xarici cisim ilk olaraq bizim duyğu orqanlarımızı təsirləndirmədən zehnimizə təsir etmir; cisimlərin yeganə fəaliyyəti isə hərəkətdir, o isə toqquşmalar olmadan ötürülmür. Deməli, uzaq obyekt gözə təsir edə bilməz, eləcə də nə özünün, nə də keyfiyyətlərinin zehin tərəfindən qavranılmış olmasını mümkün edə bilməz. Buradan aşkarca belə çıxır ki, rənglərin qavranılmasına birbaşa səbəb gözlə təmasda olan bəzi substansiyalardır – işıq kimi.

**Filonus:** Necə? İşıq substansiyadır?

**Hilas:** Deyirəm sizə, Filonus, xarici işıq seyrək axıcı substansiyadan başqa bir şey deyil, hansının ki kiçik hissəciklərini zirək hərəkətlə təşviq etdikdə və onlar xarici obyektlərin müxtəlif səthlərindən gözdə çeşidli şəkillərdə əks olunduqda, görmə sinirlərində fərqli hərəkətlər yaradır; bu

hərəkətlər beyinə ötürülür ki, bu da orada müxtəlif vəziyyətlər və hallar yaradır; və bunlar qırmızı, göy, sarı və s. kimi duyğularla müşayiət olunur.

**Filonus:** Onda belə görünür ki, işığın gördüyü iş görmə sinirlərini titrətməkdən ibarətdir.

**Hilas:** Elədir.

**Filonus:** Və sinirlərin hər bir xüsusi hərəkətinin nəticəsi kimi zehin hansısa xüsusi rəng olan bir duyğu ilə təsirlənir.

**Hilas:** Doğrudur.

**Filonus:** Və bu duyğular zehindən xaricdə mövcud deyillər.

**Hilas:** Mövcud deyillər.

**Filonus:** Madam ki, siz işığı zehindən xaric olan cismani substansiya hesab edirsiniz, bu halda necə iddia edə bilərsiniz ki, rənglər işıqdadır?

**Hilas:** İşıq və rənglər *tərəfimizdən birbaşa qavranılan olaraq* zehindən kənarda mövcud ola bilməz – bunu qəbul edirəm. Lakin özü-özlüyündə onlar yalnız materiyanın müəyyən hissiyyatsız hissəciklərinin hərəkət və düzülüşləridir.

**Filonus:** Onda sözün adi mənasında – yəni, görmənin birbaşa obyektləri kimi – rənglər qavramayan heç bir substansiyaya aid ola bilməz.

**Hilas:** Bu, elə mən dediyimdir.

**Filonus:** Yaxşı, onda siz bütün insanlığın rəng kimi qəbul etdiyi *hissi* keyfiyyətlərlə bağlı mövqeyinizdən imtina edirsiniz. Alimlərin *görünməz* rəngləri haqqında nə istəyirsiniz düşünün; bunlar barəsində mübahisə etmək mənim işim deyil. Ancaq təklif edirəm, düşünəsiniz ki, gördüyümüz göy və qırmızının gerçək rənglər *olmamasını* və heç kimin heç vaxt görmədiyi və ya görə bilmədiyi müəyyən naməlum hərəkətlər və formaların gerçək rənglər *olmasını* indikinə oxşar bir

müzakirədə təsdiq etmək sizə görə ağlabatandırmı. Bunlar heyrətləndirici anlayışlar deyilmi və güzəştə getməli olduğunuz səs məsələsindəki kimi gülünc nəticələrə gətirib çıxara bilməzmi?

**Hilas:** Etiraf etməliyəm ki, Filonus, bu məsələdə mövqeyimi artıq müdafiə edə bilmirəm. Rənglər, səslər, dadların – bir sözlə, “ikinci dərəcəli keyfiyyətlər” deyilən hər şeyin – zehindən kənarda mövcudluğu yoxdur. Ancaq bunu qəbul etməkdə mən materiya və ya xarici obyektlərin reallıq payını azaltmıram, çünki bir çox filosoflar mənim ikinci dərəcəli keyfiyyətlər barəsindəki düşündüklərimi təsdiq edirlər və hələ də materiyanın inkarından çox uzaqdadırlar. Bunu daha aydın etmək üçün: filosoflar hissi keyfiyyətləri *birinci və ikinci* dərəcələrə ayırırlar. Birinci dərəcəli keyfiyyətlər yertutumu, forma, bərklik, cazibə, hərəkət və sükunətdir. Onlar hesab edirlər ki, bu keyfiyyətlər həqiqətən cisimlərdə mövcuddur. İkinci dərəcəli keyfiyyətlər bütün birinci olmayan hissi keyfiyyətlərdir; və filosoflar təsdiqləyirlər ki, onlar zehindən başqa heç bir yerdə mövcud olmayan yalnız bir sıra duyğular və ideyalardır. Şübhə etmirəm ki, siz bütün bunlardan xəbərdarsınız. Mən özüm belə bir fikrin filosoflar arasında yayıldığını çoxdan bilirdim, ancaq indiyədək bunun həqiqiliyinə tam əmin olmamışam.

***Çevirəni və Ön sözün müəllifi Anar Cəfərov***

**Berklinin Hilas və Filonus arasında üç dialoq əsərinin tərcüməsinə ön söz**

https://bakuresearchinstitute.org/az/berklinin-hilas-ve-filonus-arasinda-uc-dialoq-eserinin-tercumesine-on-soz/

**Birinci dialoqun birinci hissəsi**

https://bakuresearchinstitute.org/az/hilas-v%c9%99-filonus-arasinda-uc-dialoq/